## Nigaranlıq içindəyəm

Bir qaranlıq içindəyəm,
Nigaranlıq içindəyəm.
Kimsə bilmir nə gündəyəm...
Sinəmdə silah lüləsi
Vətəndə va sürgündəyəm
Şəhərim güllə yaralı.
Divarları deşik-deşik,
Küçələrdə silahlılar
Bozüzlülər çəkir keşik.
Qırılıbdır oğullarım.
Qanla boyanıb yollarım,
Dilim yenə susdurulub.
Bağlı qalıbdır qollarım.
Biz belə dərd görməmişik,
Belə qurban verməmişik.
Belimi qoymayın büküm.
Gözümün yaşını töküm
Qan tüpürüm, ahlar çəkim,
Tapdalanım ayaqlarda.
Düzəldin sınmış belimi.
Sürünməyim torpaqlarda.

1990